www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-10 (1727) 31 may 2021-ci il



## Metropolitenin "8 Noyabr" stansiyası istifadəyə verilib

*Prezident İlham Əliyev stansiyada yaradılan şəraitlə tanış olub*

səh. 2

## Qazi Universitetinin nümayəndə heyəti Bakıda görüşlər keçirib

**Türkiyənin Qazi Universitetinin nümayəndə heyəti Azərbaycanda səfərdədir. Səhiyyə nazirinin birinci müavini, nazirin səlahiyyətlərini icra edən Teymur Musayev nümayəndə heyəti ilə görüşüb. Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də görüşdə iştirak edib.**

Tədbirdə çıxış edən Teymur Musayev ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən tibb sahəsində qarşılıqlı faydalı əlaqələrin mövcudluğundan məmnunluğunu bildirərək, bu qardaş münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb: "Müasir dünyada keyfiyyətli tibb təhsili olduqca vacib məsələdir. Bu mənada, ATU və Qazi Universitetinin əməkdaşlığı, o cümlədən elmi və təcrübi biliklər mübadiləsi aparması tibb işçilərimizin vətəndaşlarımızın sağlamlığının keşiyində daha peşəkarlıqla dayana bilməsi baxımından çox önəmlidir. Mən Vətən müharibəsi dövründə türkiyəli həmkarlarımızın dəstəyini də xüsusi vurğulamaq istərdim. Biz, eyni zamanda bu gün bütün dünyanı ağuşuna almış COVID-19 pandemiyası ilə mübarizə sahəsində də yaxından əməkdaşlıq edirik. Məhz Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan bu qlobal təhlükədən daha az itkilərlə çıxmağı bacarıb".

Davamı səh. 2-də



## Buraxılış kurslarının sessiya imtahanları uğurla başa çatıb

*Əcnəbi tələbələr üstünlük təşkil etdiyi üçün Əczaçılıq fakültəsi üzrə imtahanlar onlayn qaydada keçirilib*

səh. 4

## Çexiya səhiyyə nazirinin müavini Tədris Cərrahiyyə Klinikasında olub

səh. 3

## İctimai səhiyyənin aktual problemləri müzakirə olunub

səh. 7



## "Heç bir dərmanın 100 faizlik təsiri yoxdur"

*Professor Amaliya Əyyubova deyir ki, viruslara qalib gəlmək üçün hər bir insan özü-özünün həkimi olmalıdır*

səh. 5

# Metropolitenin “8 Noyabr” stansiyası istifadəyə verilib

## Prezident İlham Əliyev stansiyada yaradılan şəraitlə tanış olub




Mayın 29-da Bakı Metropoliteninin “8 Noyabr” stansiyası istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev stansiyada yaradılan şəraitlə tanış olub.

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına stansiya barədə məlumat verib. Bildirilib ki, ümumi uzunluğu 363,34 metr olan Bakı Metropoliteninin 26-cı, “Bənövşəyi” xəttin 3-cü stansiyası Nəsimi rayonunda yerləşir. Stansiya ərazinin yeraltı nəqliyyat vasitəsilə şəhərin mərkəzi və paytaxtın digər rayonları ilə birləşdirilməsində xüsusi rol oynayır.

Üçsəviyyəli quruluşa malik stansiyanın giriş və müvafiq keçid-nəzarət sahəsi üst mərtəbəyə aiddir. Texniki xarakterli ikinci səviyyədə elektrik təchizatı, havalandırma, işarəvermə, rabitə və digər xidməti sahələrə aid avadanlıqlar yerləşir. Buradan sərnişinlər eskalatorlar və pilləkənlə vestibülə, oradan da platformaya enirlər. Bununla da sərnişinlərin rahatlıq və təhlükəsizliyi maksimum şəkildə təmin edilir. Hərəkətin optimal təşkili ilə vaxta qənaət edilməsi isə vətəndaş məmnunluğuna hesablanan əsas amillərdən biridir. Metropolitenin bu stansiyasının tikintisi zamanı həssas kateqoriyadan olan vətəndaşlarımızın çətinlik çəkməməsi üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, dövlətimizin başçısının göstərişinə əsasən, Bakı Metropoliteninin yeni stansiyasına Zəfər günü münasibətilə “8 Noyabr” adının verilməsi respublika ərazisində həyata keçirilən bütün layihələrə postmünaqişə reallıqlarına uyğun – yeni, Qələbə və Həmrəylik ruhundan yanaşıldığını göstərir.

İkinci Qarabağ müharibəsindəki Zəfərimizin tərənnümü olan bu stansiya sosial-iqtisadi, infrastruktur əhəmiyyəti ilə yanaşı, həm də mənəvi komponentləri özündə ehtiva edir. Çünki bir zamanlar metronun “20 Yanvar” stansiyasından “Azadlıq” stansiyasına gedən yolda tarixən yaşadığımız iztirabları, məşəqqətli günləri xatırlayırdıqsa, indi “8 Noyabr” stansiyasında bu keşməkeşli yolun xoşbəxt sonluğuna, “Dəmir yumruğun” gətirdiyi Qələbə müjdəsinə şahidlik edəcəyik.

# Qazi Universitetinin nümayəndə heyəti Bakıda görüşlər keçirib

*Tibb təhsili üzrə ölkələrimiz arasında əməkdaşlıq yüksək qiymətləndirilib*

*Əvvəli səh. 1-də*

Professor Gəray Gəraybəyli rəhbəri olduğu ATU ilə Türkiyənin tibb üzrə ixtisaslaşmış universitetləri arasındakı əlaqələrdən danışıb: “Bizim bir çox universitetlərlə işlək əməkdaşlıq müqavilələrimiz var. Bunlardan biri də Qazi Universiteti ilədir. Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nı rəhbər tutaraq, biz bu gün iki universitet arasındakı memorandumu yeniləyirik. Pandemiya dönəmində ATU ilə Qazi Universiteti arasında qarşılıqlı fəaliyyət davam etdirilib, tələbələrimiz Qazi Universitetində keçirilən tibb bacısı, stomatologiya və tibb ixtisasları üzrə dərslərə onlayn olaraq qatılıblar. Qeyd edim ki, ATU-da keçən ildən etibarən 4 yeni ixtisas üzrə qəbul aparılır. Bu ixtisaslar üzrə də türkiyəli həmkarlarımızdan kömək görürük”.

Qardaş ölkə tibb işçilərinin Vətən müharibəsi zamanı Azərbaycanın yanında olmasından danışan rektor, bu yardımın ölkəmiz üçün böyük mənəvi və praktiki əhəmiyyət daşıdığını vurğulayıb.

Qazi Universitetinin 95 yaşı olduğunu bildirən rektor, professor Musa Yıldız isə, 11 fakültə, 1 kollec, 3 peşə məktəbi və 5 institut ilə insanların xidmətində olduqlarını nəzərə çatdırıb: “Qardaş Azərbaycana hər zaman bütün imkanlarımızla yardım etməyə hazırıq. “İki dövlət, bir millət” anlayışı Qarabağ müharibəsi ilə tam şəkildə təsdiqləndi”.

Görüşdən sonra qonaqlar ATU-nun Tədris Stomatoloji Klinikasında tələbələr üçün yaradılan şəraitlə tanış olublar. Daha sonra Tədris Cərrahiyyə Klinikasına baş çəkiblər. Klinikanın direktoru, professor Surxay Hadıyev klinika haqqında geniş məlumat verib. Tədris Treninq Mərkəzində yeni nəsil robotlar qonaqlara təqdim edilib.

Nümayəndə heyəti ATU-nun Anatomiya Muzeyində də olub. Muzeydəki unikal eksponatlarla bağlı heyranlıqlarını gizlətməyən qonaqlar, sintetik meyitə xüsusi maraq nümayiş etdiriblər.

Görüşlərdə Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova, ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev, Elmi işlər üzrə prorektor, dosent Rauf Bəylərov, Tərbiyə işləri üzrə prorektor, dosent Zülfüqar Musabəyov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Beynəlxalq əla-





qələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, Qazi Universitetinin Sağlamlıq elmləri fakültəsinin dekanı, professor Bülent Elbasan, Tibb fakültəsinin dekanı, professor Mustafa Necmi İlhan, Təhsil, təlim və xarici əlaqələr koordinatoru, professor İhsan Kalenderoğlu iştirak ediblər.

Qeyd edək ki, ölkəmizdə səfərdə olan qonaqlar Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı tərəfindən qəbul olunublar. Görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli də iştirak edib.

# “Türkiyə-Azərbaycan təhsil əməkdaşlığı” mövzusunda görüş baş tutub

## Professor Gəray Gəraybəyli: “ATU-da beynəlxalq əlaqələrin inkişaf etdirilməsi prioritet fəaliyyət istiqamətlərindən biridir”

**Mayın 25-də Türkiyənin Qazi Universitetinin rektoru Musa Yıldızın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycanın aparıcı ali təhsil müəssisələrinin rektorları arasında “Türkiyə-Azərbaycan təhsil əməkdaşlığı” mövzusunda görüş keçirilib.**

Tədbiri açan təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, ulu öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” fəlsəfəsi ilə əsaslı təmələ sahib olan, tarixi köklərə və qardaşlığa söykənən Azərbaycan-Türkiyə əlaqələri siyasi, iqtisadi-ticarət, humanitar, hərbi və digər sahələrdə uğurla davam edir. Nazir müavini vurğulayıb ki, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ölkələrimiz arasında əlaqələr daim inkişaf edir. Müasir dövrün tələbləri elm, təhsil sahəsində inteqrasiyanın dərinləşdirilməsini, bu sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini göstərir. Bu baxımdan yüksəkixtisaslı kadr hazırlığı məqsədilə xarici ölkələrin, xüsusilə Türkiyənin qabaqcıl ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin davamlı inkişaf etdirilməsi universitetlərin prioritet istiqamətləri kimi müəyyənləşdirilib.

F.Qurbanov diqqətə çatdırıb ki, Azərbaycanda təhsil alan 90 ölkənin əcnəbi tələbələri arasında Türkiyə vətəndaşlarının sayı 40 faizdən çoxdur. Türkiyədə isə 23 min Azərbaycan vətəndaşı təhsil alır.

Nazir müavini 70 minlik tələbə kontingentinə və bir əsrlik tarixə malik Qazi Universiteti ilə yerli ali təhsil müəssisələrimiz arasında imzalanan əməkdaşlıq müqavilələrinin əhəmiyyətinə



toxunub.

Çıxış edən Qazi Universitetinin rektoru Musa Yıldız Azərbaycan və Türkiyə ali təhsil müəssisələri arasında qurulan əlaqələrin yüksək nəticələr verəcəyindən əminliyini ifadə edib. Rektor rəhbəri olduğu universitetin təqdimatını edib, ali təhsil müəssisəsi haqqında geniş məlumat verib.

Sonra Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxış edərək, ATU-da beynəlxalq əlaqələrin inkişaf etdirilməsinin prioritet fəaliyyət istiqamətlərindən biri olduğunu diqqətə çatdırıb: “Son 5 ildə bu sahədə sürətli inkişafın şahidiyik. Təbii ki, bu prosesdə Türkiyə Cümhuriyyətinin təhsil və elm qurumları ilə əlaqələr xüsusi yer tutur. Təsadüfi deyil ki, hazırda Türkiyənin 20 fərqli elm və təhsil qurumu ilə geniş əlaqələr qurulub və aktiv əməkdaşlıq həyata keçirilir. Bu qurumlarla imzalanmış sənədlərdə universitetlər arasında tələbələrin və professor-müəllim heyətinin mübadiləsi, birgə elmi fəaliyyət, birgə elmi tədbirlərin (konfranslar, seminarlar, simpoziumlar, treninqlər və s.) həyata keçirilməsi nəzərdə tutulub. Həmçinin onu da qeyd etmək istərdik ki, Türkiyənin 6 universiteti ilə Mevlana mübadilə proqramı üzrə və I universitetlə isə Erasmus mübadilə proqramı üzrə əməkdaşlıq da mövcuddur. Bildiyiniz kimi, Azərbaycan Tibb Universiteti təhsil alan əcnəbi vətəndaşların sayına görə ölkədə lider universitetdir. Sevindirici haldır ki, onların içərisində Türkiyə vətəndaşları üstünlük təşkil edir. Belə ki, ATU-da ümumilikdə 883 nəfər Türkiyə vətəndaşı təhsil alır. Onların 675 nəfəri 3 ixtisas (Müalicə işi, Diş həkimliyi, Əczaçılıq) üzrə, 203 nəfəri Hazırlıq kursunda, 5 nəfəri isə Rezidentura təhsili almaqdadır. Əməkdaşlıq etdiyimiz Türkiyə universitetləri içərisində Qazi Universiteti ilə əlaqələr xüsusilə diqqəti cəlb edir. Qazi Univesiteti ilə artıq 10 ilə yaxındır ki, aktiv əməkdaşlığımız mövcuddur. 2020-ci ilin sentyabr ayında universitetlər arasında geniş tərkibdə onlayn görüş keçirilmiş, əməkdaşlıq tarixi və gələcək perspektivlər müzakirə olunmuşdur. Həmin görüşdə Əməkdaşlıq Protokolunun yeni müddəalar əlavə edilməklə yenilənməsinə qərar verilmişdir. Öncəki əməkdaşlıq istiqamətləri ilə yanaşı, Azərbaycan Tibb Universitetində yeni açılmış “Tibb bacılığı” və “Fizioterapiya və tibbi reabilitasiya” ixtisasları, ikili diplom proqramları və kurrikumların yenilənməsi üzrə əməkdaşlıq istiqamətləri də əlavə edilmişdir. Görüşdən sonra dərhal işçi qruplar yaradılmış və qeyd olunan yeni ixtisaslar üzrə əməkdaşlığa start verilmişdir. Qeyd etmək istərdim ki, Qazi Universitetində tələbələrin rahatlıqla istifadə edə biləcəyi onlayn tədris platforması yaradılmışdır. ATU-nun tələbələri bu dərslərə böyük həvəslə qatılmış və öz biliklərini daha da genişləndirmişlər”.

Rektor bildirib ki, son ildə görülən ən mühüm işlərdən biri də, ATU-da yeni açılmış “Tibb bacılığı” və “Fizioterapiya və tibbi reabilitasiya” ixtisasları üzrə mütəxəssis hazırlanmasına Qazi Universitetinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Nəcibə xanımın şəxsində Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin verdiyi dəstəkdir: “Həmçinin diqqətinizə çatdırmaq istərdim ki, hörmətli rektor Musa Yıldızın başçılıq etdiyi nümayəndə dünən Azərbaycan Tibb Universitetində olub, görüşlərimizdə gələcəkdə əməkdaşlığın genişləndirilməsi prespektivləri müzakirə edilib. Qərara alınıb ki, yaxın vaxtlarda I kurs tələbələri ilə yanaşı, yuxarı kurslarda təhsil alanlara da onlayn dərslərdə iştirak imkanı yaradılsın, ikili diplom proqramları üzrə daha aktiv iş aparılsın və magistratura-doktorantura təhsil pilləsi üzrə mübadilə proqramlarının mümkünlüyü mütəxəssislərin iştirakı ilə müzakirə edilsin”.

Sonda müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Çexiya səhiyyə nazirinin müavini Tədris Cərrahiyyə Klinikasında olub

**Mayın 24-də Çex Respublikası səhiyyə nazirinin müavini Radek Policarın rəhbərlik etdiyi nümayəndə heyəti ATU-nun qonağı olub. Qonaqlar universitetin Tədris Cərrahiyyə Klinikasına da baş çəkiblər.**



Nümayəndə heyətinin səfərindən məmnun olduqlarını deyən klinikanın direktoru, professor Surxay Hadıyev əvvəlcə tibbi personalın fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verib. Bildirib ki, sovetlər dönəmində kafedralarımız respublikanın müxtəlif xəstəxanalarında yerləşirdi: "Müstəqillik dövründə isə yeni xəstəxanalar yaradıldı. Universitetimizdə də ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və qayğısı nəticəsində həm tədris, həm də müalicə işi aparan klinikaların bünövrəsi qoyuldu və bu iş ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Qonağı olduğunuz bu klinika da ölkə başçısının sərəncamı ilə inşa olunan 4 universitet klinikasından biridir. Cərrahi klinikanın yaradılmasında əsas məqsəd ilk növbədə cərrahi yönümlü bütün kafedraları bir yerə toplamaq və bununla da tədrisin keyfiyyətini artırmaqdan ibarət idisə, digər məqsəd universitetin və respublikanın ən yaxşı həkim, müəllim-professor heyətini özündə birləşdirən müasir müalicə müəssisəsində əhaliyə keyfiyyətli tibbi yardım göstərmək idi".



Çexiya nümayəndə heyətinin rəhbəri, səhiyyə nazirinin müavini Radek Policar xüsusi qonaqpərvərliklə qarşılandıqlarına görə klinikanın rəhbərliyinə təşəkkürünü bildirib. Qeyd edib ki, həm də tədris mərkəzi kimi fəaliyyət göstərən, Azərbaycanda ilk sıralarda olan bir klinikada olmaqdan şərəf duyurlar. O, nümayəndə heyətinin tərkibinə səhiyyə sektorunda çalışan şəxslərlə yanaşı, Çexiyada fəaliyyət göstərən müxtəlif şirkətlərin əməkdaşlarının da daxil edildiyini diqqətə çatdırıb.

Sonra ayrı-ayrı şirkətlərin nümayəndələri çıxış ediblər. Tibbi avadanlıqlar istehsalının Çexiyada ən öndə gedən sahələrdən biri olduğu vurğulanıb. İki günlük biznes-forum çərçivəsində tibbi məhsullarının təqdim etməyə şərait yaratdığı üçün Çexiyanın Azərbaycandakı səfirliyinə minnətdarlıqlarını ifadə edən şirkət nümayəndələri reablitasiya dövrünü keçirən qaraciyər və şəkərli diabet xəstələrinə lazım olan aparatların istehsalı, eləcə də satışı ilə bağlı görülən işlərdən danışıblar. Çıxışlar zamanı o da məlum olub ki, nümayəndə heyətində təmsil olunan şirkətlərin bəziləri 10 ildən artıqdır ki, Azərbaycanda fəaliyyət göstərir.

Çexiyada dərman istehsalı ilə məşğul olan şirkətin nümayəndəsi ölkələrindəki apteklərin 96 faizində dərman satışı həyata keçirdiklərini, xəstəxanaları nəinki sistemdə mövcud olan dərmanlarla, hətta ərzaq, qida əlavələri ilə təmin ediklərini də deyib.

Görüş zamanı pasiyentlə tibb bacısı arasında konfiqurasiyanın təşkilindən, müasir tələblərə cavab verən tibbi yataqların satışından, təklif edilən bütün tibbi avadanlıqların təchizatı, servisi və sığortası məsələlərindən də söhbət açılıb.

Sonra nümayəndə heyəti klinikanın şöbələri, laboratoriyaları ilə əyani tanış olub və qarşılıqlı fikir mübadiləsi aparılıb.

Görüşdə Çex Respublikasının Azərbaycandakı fövlalədə və səlahiyyətli səfiri Milan Ekert, səfirliyin missiya rəhbərinin müavini Daniel Putik, Çexiya ticarət qurumunun Bakı ofisinin rəhbəri Pavel Zelenka, ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov, Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Nigar Ələkbərova, klinikanın elm və təhsil üzrə direktor müavini, professor Davud Pənahov, Kliniki və biokimyəvi laboratoriyanın müdiri Yavər Hacısoy, Tədris treninq mərkəzinin müdiri Elmar Şərifov, Marketinq şöbəsinin müdiri Mehriban Əliyeva və Beynəlxalq əlaqələr üzrə koordinator Aynur Rzayeva da iştirak ediblər.

**Arif MƏMMƏDLİ**

---

**44 günlük Vətən müharibəsində gənclərimizin böyük qəhrəmanlıqlarının şahidi olduq. Mətbuat orqanlarında, televiziya ekranlarında, eləcə də sosial mediada ölümün gözünə dik baxan, düşmənin üzərinə cəsarətlə yeriyən, torpaqlarımızın azadlığı naminə hər şeyə hazır olan əsgərlərimizlə bağlı qələmə alınan yazılar, görüntülər ürəyimizi qürur hissi ilə doldurur-du. Belə gənclərdən biri də ATU-nun İnformasiya texnologiyaları şöbəsinin texniki Kənan Orucovdur.**



24 yaşlı Kənan Azərbaycan Kooperasiya Universitetini bitirib. 2018-2019-cu illərdə hərbi xidmətdə olub. O vaxt ağlına da gəlməzdi ki, çox keçməyəcək, torpaqlarımızın azad olunmasında öz hərbi ixtisası üzrə - minaatan heyət nəfəri kimi iştirak edəcək.

Ötən il sentyabrın 28-dən cəbhədə olan K.Orucov Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa istiqamətlərində ağır döyüşlərə qatılıb. Dediyinə görə, ən ağır döyüşlər Xocavəndin Qırmızı Bazar yaşayış məntəqəsi istiqamətində olub: "Biz həmin istiqamətdən Şuşaya yaxınlaşmalı idik. Ermənilər bunu hiss edib, bizi sürəkli top və iriçaplı pulemyot atəşinə

# "Şuşa alınanda, sevincimizin həddi-hüdudu yox idi"

*Vətən müharibəsinin qəhrəmanlarından biri də ATU-nun əməkdaşı Kənan Orucovdur*

tutdular. Qəlpələr ətrafımıza yağış kimi səpələnirdi. Şübhəsiz, biz də onları cavabsız qoymurduq. İki həftə meşədə açıq havada qaldıq. Hərbçilərimiz arasında qələbə qazanmaq əhval-ruhiyyəsi yüksək idi. Heç kəs arxaya dönmək haqqında fikirləşmirdi. Yalnız irəli getmək, qələbə qazanmaq haqqında düşünürdük. Hamımız yaxşı bilirdik ki, biz özgə torpaqlarında deyil, öz torpaqlarımız uğrunda vuruşuruq. Ermənilər qorxmadığımızı, necə vuruşduğumuzu görüb silahlarını, idarə etdikləri texnikaları atıb, arxalarına baxmadan qaçırdılar. Ermənilərin özləri haqqında formalaşdırdığı "məğlubedilməz" mifini cəmi 44 gündə darmadağın etdik".

K.Orucov müharibənin insan həyatında buraxdığı izlərdən də söhbət açdı. İlk dəfə yaralıları və şəhid olanları görəndə, ona təsir etdiyini bildirdi: "Müharibə deyəndə ölüm-itim, fəlakət, dağıntılar gözlərimizin qabağından keçir. Bunları yaşamaq asan deyil. Amma bizim qələbə əzmimiz hər şeydən üstün idi. Hətta düşmən tərəfdən vuruşan xüsusi hazırlıq görmüş muzdlular da qəhrəman hərbçilərimizin qarşısında duruş gətirə bilmədilər. Bilirdik ki, müharibədir, hər şey ola bilər. Doğrudur, müharibə vaxtı ac qalmadıq, amma susuz qalan vaxtlarımız oldu".

Gənc qəhrəmanımız Şuşanın alınmasını belə xatırlayır: "Şuşa alınanda, biz Qırmızı Bazar ərazisində idik. O istiqamətdən Şuşaya yaxınlaşmaq əmrini almışdıq. Qarşı tərəfdə şəhər uğrunda gedən döyüşləri izləmək imkanımız vardı. Şuşa alınanda, sevincimizin həddi-hüdudu yox idi. Səhərə qədər heç birimiz yatmadıq. Mənim üçün o hissləri izah etmək çox çətindir. Şuşanın alınmasından sonra ermənilər məğlubiyyətlərini tam dərk edərək, kapitulyasiya sənədini imzalamağa məcbur oldular. Müqavilə imzalanandan 4-5 gün sonra bizi Laçın istiqamətinə apardılar və orada postlarımızı qurduq".

Kənan Şuşada olmamasından dərin təəssüf hissi keçirir: "Çox istəyirdim ki, Şuşada olum, Qarabağımızın tacını ziyarət edim. Amma bizə Laçın istiqamətinə getməyi əmr etdilər, Şuşanı görmək qismət olmadı. Fikrim o torpaqlara getmək, vuruşduğum yerləri qarış-qarış gəzmək və Şuşanı görməkdir. İsa bulağının başında, Cıdır düzündə dostlarımla istirahət etmək istəyirəm. Qədim Azıx mağarasını görmək də çoxdankı arzularımdan biridir. Biz həmin əraziləri xarici turistləri cəlb edərək, o torpaqların xalqımıza məxsus olduğunu hər addımda onlara nümayiş etdirməliyik".

**Qabil ABDULLAYEV**

---

# COVID-19-la bağlı dünyadakı vəziyyətə həsr olunmuş konfrans

## Tədris Terapevtik Klinikada keçirilən müzakirələrdə türkiyəli alimlər də iştirak edib

**Mayın 25-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında konfrans keçirilib. Tədbiri klinikanın direktoru, professor Surxay Musayev açaraq, ölkəmizdə qonaq olan Türkiyənin Qazi Universitetinin professorlarını və konfrans iştirakçılarını salamlayıb.**





O, ATU ilə Qazi Universiteti arasındakı əlaqələrdən, o cümlədən tələbə mübadiləsindən, rezidentlərimizin keçdiyi praktik təcrübədən danışıb. Bildirib ki, pandemiya dövründə başqa universitetlər rezidentləri qəbul etmədiyi halda, Qazi Universiteti rezidentlərimizi qəbul edib və onların təhsil almasına şərait yaradıb. Buna görə klinikanın direktoru universitetin nümayəndələrinə təşəkkür edib. Konfransın COVID-19-la bağlı olduğunu diqqətə çatdıran S.Musayev, sözü adıçəkilən universitetin Tibb fakültəsinin dekanı, professor Mustafa Necmi İlhana verib. O, "Dünyada və Türkiyədə COVID-19 pandemiyası və onun səhiyyə sisteminə təsiri" mövzusunda geniş çıxış edib. Natiq COVID-19 pandemiyası ilə bağlı hazırda dünyadakı vəziyyət, bu bəlanın özü ilə gətirdiyi fəsadlar, eləcə də ölkələrin iqtisadiyyatlarına vurduğu ziyanlarla bağlı iştirakçılara ətraflı məlumat verib.

Sonra Qazi Universitetinin Sağlamlıq elmləri fakültəsinin dekanı, professor Bülənt Elbasan pandemiya müddətində insanların fiziki aktivliyinin aşağı düşməsinin təhlükəli tərəfləri barədə danışıb. O, müxtəlif yaş qrupları arasında aparılan təcrübə və nəticələrlə bağlı fikirlərini bölüşüb.

Sonda ATU-nun II Daxili xəstəliklər kafedrasının assistenti Könül İsmayılova "COVID-19 pandemiyası – Azərbaycan Tibb Universitetinin təcrübəsi" mövzusunda çıxış edib. K.İsmayılova pandemiya dövründə həkimlərin və xəstələrin davranışları, tibb işçilərinin göstərdiyi fədakarlıq, keçirilən təlimlər və digər məqamlarla bağlı fikirlərini bölüşüb.

İştirakçılar tərəfindən maraqla qarşılanan məruzələrdən sonra konfrans öz işini müzakirələr və sual-cavab əsnasında yekunlaşdırıb.

Türkiyəli qonaqlara universitetimizin 90 illiyi ilə əlaqədar nəfs şəkildə tərtib olunmuş albom hədiyyə olunub.

Konfransda ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov iştirak ediblər. Qonaqlar tədbirdən sonra Tədris Cərrahiyyə Klinikasının şöbələri ilə tanış olub, klinikadakı şəraitdən razı qalıblar.

# Buraxılış kurslarının sessiya imtahanları uğurla başa çatıb

*Əcnəbi tələbələr üstünlük təşkil etdiyi üçün Əczaçılıq fakültəsi üzrə imtahanlar onlayn qaydada keçirilib*



Mayın 16-dan etibarən Azərbaycan Tibb Universitetində bütün fakültələr üzrə buraxılış kurslarının sessiya imtahanlarına start verilib. Bu barədə danışan İmtahan Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülkər Cəfərova Əczaçılıq fakültəsinin tələbələrinin imtahanları onlayn qaydada verdiklərini diqqətə çatdırdı.

Bildirdi ki, adıçəkilən fakültədə əcnəbi tələbələrin sayı yerli tələbələrdən çoxdur: "Əcnəbi tələbələr pandemiyaya görə öz ölkələrindədirlər. Onlar çoxluq təşkil etdiyi üçün bu fakültədə oxuyan bütün tələbələr onlayn şəkildə imtahan verirlər. Amma digər fakültələrin tələbələrindən İmtahan Mərkəzinin zallarında səhər saat 08.30-dan 13.30-dək ənənəvi qaydada imtahan götürülür".

Ü.Cəfərova tələbələrin mühafizəçilər tərəfindən hərarəti ölçüldükdən sonra imtahana buraxıldıqlarını vurğuladı. Qeyd etdi ki, hərarəti yuxarı olan tələbə imtahana buraxılmır: "Həmin tələbələr müayinəyə göndərilir, nəticə neqativ çıxarsa, onlara dərhal imtahan vermələri üçün şərait yaradılır. Pozitiv çıxarsa, onların karantin müddətlərinin başa çatması gözlənilir və rəhbərlik tərəfindən uyğun gün təyin olunaraq imtahan vermələrinə şərait yaradılır. Bu il Əczaçılıq və Stomatologiya fakültələrinin tələbələri üçün imtahana açıq tipli suallar salınıb. 25 sualın hər biri 2 balla qiymətləndirilir. Açıq tipli test tapşırıqları olan fakültələrdə 15-i baza sualı, 10-u isə açıq tiplidir. Açıq tipli sualların tətbiqinin məqsədi tələbələri əzbərçilik vərdişlərindən uzaqlaşdırmaqdan ibarətdir".

Ü.Cəfərova tələbələrin imtahan suallarından etdikləri şikayətlərlə bağlı məsələyə də toxundu. Onların şikayətlərinə onlayn şəkildə baxıldığını, müraciət daxil olan kimi, araşdırılması üçün müvafiq kafedraya - ekspertə göndərildiyini vurğuladı. Müsahibimiz qeyd etdi ki, tələbənin şikayəti əsaslıdırsa, nəzərə alınır və nəticə ilə bağlı elektron ünvanlarına məlumat göndərilir.

II Müalicə-profilaktika fakültəsinin V-VI kurs üzrə dekan müavini Arzu Bəydəmirova isə bildirdi ki, fakültənin VI kurs tələbələrinin 2-ci imtahanları gedir: "Tələbələrimizin əksəriyyəti təyin edilmiş vaxtda imtahanlarını verirlər. İmtahana buraxılmamışdan öncə hər



birinin hərarəti yoxlanılır. Tələbələr spirtlə dezinfeksiya olunur, imtahan zalında məsafə gözlənilir, maskadan istifadə edirlər".

İmtahanın gedişi ilə bağlı tələbələrin də fikirlərini öyrəndik. II Müalicə-profilaktika fakültəsinin imtahandan çıxan VI kurs tələbələri Fidan Qəribova, Məhəmməd Abbaszadə, Fidan Abbaszadə imtahan prosesindən razı qaldıqlarını bildirdilər. Sualların əksəriyyətinə cavab verdiklərini, imtahanla bağlı narazılıqlarının olmadığını dilə gətirdilər.

Tələbələrdən bəziləri isə bir sıra təkliflər səsləndirdi. Fatma Həsənova tələbələrin əzbərçilik vərdişlərindən uzaq olmaları üçün imtahanların yazılı şəkildə götürülməsini məqbul hesab etdiyini söylədi. Nuran Ağalı isə yuxarı kurs tələbələri üçün praktik təcrübəyə daha çox vaxt ayrılmasını təklif etdi. Ana dilimizdə dərs vəsaitlərinin az olmasından gileylənən N.Ağalı onların yenilənməsinin zəruriliyini vurğuladı.

Daha sonra imtahan prosesini izlədik. Zallarda nəzarətçilər imtahanın gedişinə nəzarət edir, tələbə biletləri yoxlandıqdan sonra məsafə qorunma şərti ilə kompüter arxasına əyləşmələrinə icazə verirdilər. Nəzarətçilərdən Ayzər Əhmədova iş başında olduğu müddətdə tələbələrin heç bir qaydanı pozmadığını diqqətimizə çatdırdı.

Mühafizəçilər isə binanın girişində tələbələri qarşılayırdı. Üstləri cihazla yoxlandıqdan sonra onlar imtahana buraxılırdılar. Mühafizəçilərdən Türkanə Əhmədova tələbələrdən telefonlar, səsyazan cihazlar, bəzən yazılı vərəqlər və s. götürüldüyünü bildirdi. O da tələbələrin hərarəti ölçüldükdən sonra maska ilə imtahan zalına buraxıldıqlarını, qaydalara riayət etməyənlərin isə imtahandan kənarlaşdırıldığını qeyd etdi.

## ATU-nun əməkdaşı Elmin İnkişafı Fondunun müsabiqəsinin qalibi olub

ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Orxan İsayevin rəhbəri olduğu layihə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elan etdiyi Gənc Alim və Tədqiqatçıların 5-ci qrant müsabiqəsinin qalibi olub.

"Xərçəng kök hüceyrələrinin mədəaltı vəzi xərçəngində rolunun araşdırılması və yeni müalicə üsulunun işlənməsi" adlı fundamental-tətbiqi xarakterli layihədə Azərbaycan Tibb Universiteti ilə yanaşı, Azərbaycan Milli Elmlər Akademiyasının Molekulyar biologiya və Biotexnologiyalar, Genetik Ehtiyatlar və İnfomasiya Texnologiyaları institutlarının gənc alimləri iştirak edir. Son illər xərçəng xəstəliyinin müalicəsində xərçəng kök hüceyrələrinin əhəmiyyətini nəzərə alıb, layihə çərçivəsində pre-kliniki və kliniki tədqiqatlar üçün əhəmiyyətli elmi və praktiki nəticələrin əldə olunması planlaşdırılır.

# Əməliyyat otağında "döyüşənlər"

**Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları yaralı hərbçilərimizə fədakarlıqla xidmət göstəriblər**

Azərbaycan Tibb Universitetinin əməkdaşları istər I Qarabağ, istərsə də II Qarabağ müharibəsi zamanı həm əldə silah torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına vuruşub, həm də gecə-gündüz qazilərimizin sağlamlığının keşiyində dayanıblar. Universitetimizin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları da bu müqəddəs yolda ön sıralarda olublar. Hazırda da qazilərimizin Tədris Cərrahiyyə Klinikasında müalicəsi davam etdirilir.



Dosent Fərman Həsənov Vətən müharibəsi zamanı kafedranın əməkdaşlarının fədakarlığından və qazilərimizlə bağlı duyğulu məqamlardan söhbət açıb. O hələ 1990-cı illərdən ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının kollektivinin odlu silahlardan açılan atəş nəticəsində üz-çənə nahiyəsindən zədə alan döyüşçülərimizlə necə işləmək, yaralıları necə sıraya qaytarmaq sahəsində böyük təcrübəsi olduğunu qeyd edib: "Ötən il Vətən müharibəsi başlayanda, kafedramızın müdiri, professor Çingiz Rəhimov kollektivə tapşırdı ki, pandemiya dövründə necə fədakarlıq göstərmişiksə, vətənimizin bu çətin günündə ondan da artıq fədakar olmalı, müharibədə qələbəmizə öz töhfəmizi verməliyik. Ürəyimizcə olan bu çağırışı hamımız bir nəfər kimi dəstəklədik. İlk olaraq Mərkəzi Hərbi Hospitalda fəaliyyətə başladıq. Çənə-üz nahiyəsindən və müştərək travmalar alan xəstələr kafedramızın əməkdaşları tərəfindən müalicə olunurdular. Tədris Cərrahiyyə Klinikasına yaralılar qəbul edildə isə, qazilərimizin burada müalicəsini apardıq. Klinikanın istər Reanimasiya şöbəsi, istərsə də Əməliyyat bloku fasiləsiz fəaliyyət göstərirdi. Əməliyyat blokunun mudiri Canəli həkim yorulmadan oz komandası ilə bir neçə yaralıya eyni vaxtda narkoz verirdi".

F.Həsənov başqa ixtisas həkimlərinin də onlar kimi fədakarlıq göstərdiyini və lazım gəldikdə, gecə saatlarında da özlərini xəstənin üstünə çatdırdıqlarını qürurla bildirib: "Hər bir həkim və tibb bacısı can-başla, ürək yanğısı ilə qəhrəman oğullarımızın xidmətində dayanırdı. Elə xəstələrimiz var idi ki, dil-dodaqları zədələndiyi üçün danışa bilmirdilər. Bu səbəbdən istəklərini mənə telefonda mesaj yazmaqla çatdırırdılar. Onların istəklərini oxuduqca, istər-istəməz təsirlənirdim. Tehran adlı bir qazimizin iki yazısı hələ də mobil telefonumda qalır: "Doktor, bilirəm, sifətim cox dağılıb, cavanam, xahiş edirəm, əməliyyatı elə edin ki, bir az yaxşı olsun".

Əməliyyatın səhəri günü ona reanimasiya şöbəsində baş çəkib, yaxşı olacağını deyəndə, "getməyin, bir az da danışın, nə olar?" müraciətini necə cavabsız qoya bilərdim? Təbii ki, qazimizlə lazımi söhbətlər etdim, xeyli ruhlandı. Bir daha başa düşdüm ki, doğrudan da həkimin xəstəyə verdiyi kiçik bir təsəllini dünyada ən böyük yaxşılıqlardan hesab etmək olar".

F.Həsənov bir ana və bacı kimi gecə-gündüz yaralıların qulluğunda dayanan Nəcibə xanımın xidmətlərini yada salır, klinikanın direktoru, professor Surxay Hadiyevin, baş həkim, professor Ramiz Poluxovun hər bir xəstə ilə maraqlandığını xatırlayır: "Ən maraqlısı isə, tibb bacılarımızın qazilərimizin doğum günlərini qeyd etməsi olurdu. Onlara sürpriz edirdik. Bu, qazilərimizə xüsusi zövq verir, əhval-ruhiyyələrini yüksəldirdi.

Hazırda da şöbəmizdə qazilərimiz üzərində rekonstruktiv, bərpaedici və plastik əməliyyatlar aparılır. Və ad günü ənənəsi davam edir".

Qeyd edək ki, klinikada müalicə alaraq normal həyata qayıdan çoxsaylı döyüşçülərimiz var. Belə qazilərimizdən biri də Rafael Yusubovdur. Onun əng və çənə nahiyəsində itirilmiş dişləri bərpa olunub, manipulyasiyası sona çatıb. Döyüş yoldaşları kimi, o da həkimlərimizdən və tibbi xidmətdən razıdır.

**Qabil ABDULLAYEV**



# "Heç bir dərmanın 100 faizlik təsiri yoxdur"

## Professor Amaliya Əyyubova deyir ki, viruslara qalib gəlmək üçün hər bir insan özü-özünün həkimi olmalıdır

**Yaz fəsli yekunlaşır, yay aylarına qədəm qoyuruq. Mövsüm dəyişiklikləri ilə bağlı bir sıra xəstəliklər də baş qaldırır. Qəribədir ki, adətən soyuq aylarda aktuallaşan xəstəliklərə ilin digər dövrlərində də rast gəlməyə başlamışıq. Bu mövzuda müsahibimiz Azərbaycan Allerqoloq, immunoloq və immunoreabilitasiya elmi cəmiyyətinin prezidenti, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının professoru Amaliya Əyyubovadır.**



**- Məlumdur ki, son vaxtlar əksər xəstəliklərin mənbəyi virus infeksiyalarıdır. Mövsüm dəyişiklikləri zamanı bu tip xəstəliklərə, xüsusilə qripə uşaqlarda daha çox rast gəlinir. Bu infeksiyadan qorunmaq üçün nə etmək lazımdır?**

- Ümumiyyətlə, son illər virusların sayı həddən artıq çoxalıb. Misal üçün, 20 il bundan qabaq həkimlərimizin 30 virus haqqında məlumatı var idisə, indi onların sayı 500-ə qalxıb və müxtəlif növləri əmələ gəlib ki, bəzən həkimlər adlarını belə bilmirlər. Virusların ən dəhşətli xüsusiyyəti ondan ibarətdir ki, onlar çox asanlıqla inkişaf edir və yayılır. Məsələn, bir insan asqırdısa, o, 50 min nəfəri, o cümlədən də uşaqları yoluxdura bilər.

**- Bəs nəyə görə bu virus yazpayız aylarında aktivləşir?**

- Ona görə ki, viruslar soyuq havada məhv olmurlar və immuniteti zəif olan uşaqlar tez-tez xəstənirlər. Belə uşaqlarda istər anadangəlmə, istərsə də sonradan qazanılma immunitet zəif olur. Əlbəttə, virus özü ağır infeksiyadır. Götürək elə korona pandemiyasını. Bizim əvvəllər bu infeksiya haqda demək olar ki, məlumatımız yox idi. Bəlkə də tək-tək hallarda böyüklərdə və ya uşaqlarda olub. Lakin bu pandemiya haqqında geniş məlumatımız olmadığına və alimlər bu virus barədə öz sözünü demədiyinə görə biz də bilməmişik. Fikir vermisinizsə, bəzi adamlar deyir ki, bəlkə də məndə koronavirus olub, ayaqüstü keçirmişəm, bilməmişəm. Çünki ədəbiyyatda bu virusun adı olsa da, həkimlərin praktiki məlumatı olmayıb. Ancaq görün necə dəhşətli bir virusdur, bütün dünyanı bürüdü. Qripi biz çox görmüşük, onun epidemiyası da olub. Vaxtilə ən çox qış aylarında adamlar bu virusa tutulurdu, hətta işə çıxa bilmirdi, uşaqlar məktəbdən qalırdı. Lakin bu dərəcədə olmurdu. Deyək ki, əvvəllər qripdən nadir hallarda tək-tük adamlar ölə bilərdi. Bunlar da adətən elə uşaqlar olurdu ki, xroniki və yaxud irsi xəstəliyi vardı. Ancaq indi vəziyyət tamam başqadır. Ona görə də tibbin ən birinci vəzifəsi profilaktik tədbirlər görməkdir. Bu mənada, ilk sırada gigiyenik qaydalara əməl etmək gəlir. Yadınızdadırsa, pandemiyadan öncə də virusa yoluxanlara deyirdik ki, maska taxın. Maska müəyyən qədər virusun ətrafa yayılmasının qarşısını alırdı. Qrip olanlar ev şəraitində müalicə alırdı, başqaları ilə kontaktda olmurdular.

**- Amaliya xanım, hazırki pandemiyadan öncə bu viruslara qarşı hansı dərmanlardan istifadə edilirdi?**

- Əlbəttə ki, qripin də vaksinasiyası var. Əvvəllər ölkəmizə Rusiyadan və digər ölkələrdən vaksinlər gəlirdi. Biz tez-tez xəstələnən uşaqlara qripə qarşı 6 aydan bir bu vaksinləri vururduq. Hətta valideynlər maraqlanırdılar ki, növbəti vaksinlər nə vaxt gələcək. Yəni uşaqlar bu vəziyyətdə bir dəfə də xəstələnməzdi. Ancaq vaksin vurulmayan uşaqlar 2-3 aydan bir xəstələnirdi. İndi baxın, fərq nə qədərdir. Əlbəttə, hər bir infeksiya uşaqlara mənfi təsir göstərir. Onlar inkişafdan geri qalır, immunitetləri zəifləyir. Hələ o zamandan anaferon və elqaferon dərmanları var ki, bunlar həm müalicə, həm də profilaktik cəhətdən daha məsləhətli idi. Bu dərmanlardan istifadə edənlər ya qripə heç tutulmurlar, ya da xəstəliyi yüngül keçirirlər. Bunlar sınaqdan çıxmış preparatlardır. Heç bir fəsad vermir və biz indi də onlardan çox geniş istifadə edirik. Hətta həkimlər koronavirusun da yüngül keçirilməsində bu preparatları məsləhət görürlər. Başqa dərmanlar da var, məsələn, armidol. Eyni zamanda, mən həmişə həkimlərə və tələbələrimizə deyirəm ki, heç bir dərmanın 100 faizlik təsiri yoxdur. Ancaq dərmanlar virusların müəyyən qədər qarşısını alır və müsbət nəticəsini də görürük.

**- Əvvəllər adətən qış aylarında bu xəstəlik baş qaldırırdı, indi bəzən yayda da qripə yoluxanlar olur...**

- Düzdür. Biz də əvvəllər fikirləşirdik ki, bunlar fəsil xəstəliyidir. Ancaq alimlər son zamanlar sübut elədi ki, viruslar il boyu havada var. Amma soyuq havalarda böyük miqdarda olursa, isti aylarda da tək-tək hallarda rast gəlinə bilər.

**- Qripə qarşı hansı profilaktik tədbirləri görmək lazımdır?**



- İnsanları maarifləndirmək vacib şərtlərdən biridir. Bəzən olur ki, insanlar həkim deyənə inanmırlar, ona riayət eləmirlər. Zəiflik, halsızlıq, qızdırma xəstəni narahat edir. Ən böyük səhv isə odur ki, qripə tutulmuş şəxslər evdə qalaraq, müvafiq müalicə almaq əvəzinə, öskürə-öskürə, burnu axa-axa işə getməkdə davam edir və yol boyunca ətrafındakıları da infeksiyaya yoluxdururlar.

Ümumiyyətlə, xəstəlikdən qorunmaq üçün gigiyena və geyim qaydalarına düzgün əməl edilməli və qidalanmaya ciddi riayət olunmalıdır. Virusa qalib gəlmək üçün hər bir insan, necə deyərlər, özünün həkimi olmalı və orqanizminin müdafiə qabiliyyətini artırmalıdır. Vitaminlərlə zəngin olan meyvə-tərəvəzlərdən istifadə etmək, əlləri tez-tez yumaq, qızdırma olduqda isə, yüngül qidalara üstünlük vermək lazımdır.

Amma bütün mübarizə tədbirlərinə baxmayaraq, əgər xəstə qripi ağır keçirirsə, o zaman təcili yardım stansiyasına və ya ərazi poliklinika həkiminə müraciət olunmalı və müvafiq müalicə tədbirləri həyata keçirilməlidir.

**M.ƏLƏKBƏRLİ**

# Bitki ovçuları

## Elmi-tədqiqat laboratoriyamızda ölkəmizdə yayılmış bitkilərin tərkibi öyrənilir

**Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən elmi-tədqiqat laboratoriyasında universitetin elmi işçiləri, magistrantlar, doktorantlar öz tədqiqat işlərini aparırlar. Burada ölkəmizin müxtəlif bölgələrində yayılmış bitkilərdən bioloji fəal maddələr alınır, tərkiblərini öyrənmək mümkün olur. Bu da hansısa xəstəliyin müalicəsi üçün ekstraktın hazırlanmasında alimlərimizə geniş imkanlar yaradır.**



Laboratoriyanın fəaliyyət istiqamətləri barədə "Təbib"in əməkdaşına universitetin Farmakoqnoziya kafedrasının baş müəllimi, əczaçılıq üzrə fəlsəfə doktoru, laboratoriyanın məsul işçisi Elvin Kərimli məlumat verdi. Bildirdi ki, laboratoriyada bioloji fəal maddələri almaq üçün bitki mənşəli materiallardan istifadə olunur: "Bioloji fəal maddələr 2 qrupa bölünür: birincili və ikincili metabolitlər. Əsas istiqamətimiz ikincili metabolitlərin alınmasıdır ki, onlardan karbohidratlar, efir yağları, ürək qlükozidləri, flavonoidlər, aşı maddələri, sepaninlər, antrasen törəmələri, kumarinlər, alkoloidlər və s. maddələr əldə edə bilirik. İşimizi hansı qrup birləşmələrin alınması istiqamətində aparacağıqsa, lazım olan bitkiləri müvafiq aylarda toplayırıq. Məsələn, bitkilər yaz aylarında çiçəkləyir, sonrakı aylarda meyvə verir, bu zaman onlarda fenol birləşmələri üstünlük təşkil edir. Ona görə də fenol birləşmələri almaq üçün bitkiləri yaz fəslində toplayırıq".

E.Kərimlinin sözlərinə görə, daha sonra bitkilər xırdalanır və qurudulur. Sonra xammalın quru çəkisi müəyyənləşir və ekstraksiya prosesinə başlanılır: "Hansı bioloji maddələr istiqamətində işlənəcəksə, ona uyğun ekstagentlə bitki xammalı ekstraksiya olunur. Proses ekstraktiv çıxarışın "Rotor" buxarlandırıcı aparat vasitəsilə həllediciləri buxarlandırılması və nəticədə quru qalığın alınması ilə sonuclanır. Sonra götürülən bitki xammalına uyğun olaraq çıxımı hesablanır. Beləliklə, neçə qram quru xammaldan neçə qram ekstraktiv maddə alındığı məlum olur".

Müsahibimiz deyir ki, əgər flavanoid tipli birləşmənin alınması istənilirsə, 70 faizli etil spirti ilə ekstraksiya olunur. Etil spirti buxarlandırıldıqdan sonra sulu hissə qalır: "Bölücü qıf vasitəsilə sulu hissə qeyri-polyar üzvi həllediciləri - heksan və xloroformla işlənərək balans maddələr təmizlənir. Bu zaman xloroformun tərkibinə efir yağları, sterinlər və s. kimi balans maddələr keçir. Əgər lazım gəlsə, həmin xloroformlu hissəni buxarlandırmaqla qalığını almaq mümkündür. Əgər məqsəd efir yağları, kumarinlər, sterinlər almaqdırsa, onda xloroform qalığını sonrakı istiqamətlərdə istifadə etmək olar".



Söhbətdən aydın olur ki, flavonoidin alınması istənildikdə, sulu hissəni xloroformla təmizlədikdən sonra yenidən etilasetatla işləmək olar: "Nəticədə aqlikon flavonoid və yaxud tərkibində bir şəkəri olan monoqlükozid flavonoidlərə keçür. Sonrakı proseslərdə tərkibində şəkərin sayı çox olan flavonoidlər almaq tələb olunursa, bu zaman onu normal butanolla işləmək lazımdır. Butanollu hissəni vakuum altında buxarlandırıcı aparat vasitəsi ilə buxarlandırıb, sonrakı qalıq şəkərlərin sayı çox olan flavonoid qlükozidləri almaq olar".

E.Kərimli laboratoriyada alınması mümkün olan digər maddələr haqda da geniş məlumat verərək, bizi iş prosesi ilə yaxından tanış etdi.

Beləliklə, alimlərimiz universitetimizin elmi-tədqiqat laboratoriyasının imkanlarından istifadə edərək, ölkəmizdə yayılmış müxtəlif bitkilərin tərkibini öyrənirlər. Bu nəticələr gələcəkdə bitki tərkibli dərman preparatlarının hazırlanması zamanı çox lazımlı olacaq.

**Q.ZİMİSTANOĞLU**

**28 May**

# Səhiyyəmiz Azərbaycan Xalq Cümhuriyyəti dövründə

***Hökumətin ilk qərarlarından biri Səhiyyə Nazirliyinin yaradılması haqda idi***



Hər bir xalqın, dövlətin taleyində təhsilə, insan sağlamlığına hansı səviyyədə münasibət göstərilməsinin müstəsna əhəmiyyəti olub. Sağlam cəmiyyətlərdə vətəndaşların sağlıq durumunun qorunması həmişə önə çəkilib. Bu nöqteyi-nəzərdən, mayın 28-də 103-cü ildönümünü qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə nəzər yetirmək olduqca vacibdir. Unutmamalıyıq ki, sürətlə inkişaf edən müasir səhiyyəmiz möhkəm bir özülün üzərində dayanıb.

Xalq Cümhuriyyəti hökumətinin ilk qərarlarından biri 17 iyun 1918-ci ildə Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar idi. Nazir vəzifəsinə 1903-cü ildə Xarkov Universitetinin tibb fakültəsini bitirmiş, ixtisasca cərrah olan Xudadat bəy Rəfibəyov təyin edildi. Nazirliyin 5 əsas şöbəsi - şəhər və məhkəmə tibbi şöbəsi, tibbi statistika, əczaçılıq, kənd səhiyyəsi, baytarlıq və sanitariya şöbələri vardı. Nazirliyin göstərişi ilə əhaliyə dövlət hesabına pulsuz tibbi xidmətə keçilmiş, yeni müalicəxanalar, tibb məntəqələri açılmış, dərman anbarları, laboratoriya binaları tikilmiş, lazımi avadanlıqlar alınmışdı. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, əhaliyə tibbi xidməti yaxşılaşdırmaq, dayandırılmasından yazırdı. Azərbaycan Səhiyyə Nazirliyi müalicə müəssisələrinin bərpasına məhz belə çətin şəraitdə başladı. Arxiv sənədlərinin verdiyi məlumata görə, 1918-20-ci illərdə qəzalarda 33 xəstəxana fəaliyyət göstərmişdir. Bu xəstəxanaların ştatlarında 1 həkim, 2 feldşer, 1 mamaça və 1 çiçək peyvənd edən işçi olmuşdur. Kəndlərdə ambulator xidmətləri pulsuz aparılmışdır. Mövcud kənd xəstəxanalarının və feldşer məntəqələrinin başlıca vəzifələri yoluxucu xəstələrin hospitallaşdırılması, xəstəlik ocaqlarının zərərsizləşdirilməsi idi. Əhalinin 75 min nəfərinə cəmi 1 həkim düşürdü. Respublika parlamenti vəziyyəti nəzərə alaraq, 1920-ci ildə kənd xəstəxanaları şəbəkələrini genişləndirmək və bu məqsədlə 35 yeni xəstəxana və 56 feldşer məntəqəsi təşkil etmək barədə qərar qəbul etmiş, bunun üçün 43 milyon 321 min 950 manat pul ayırmışdı.

Səhiyyənin dərman preparatları ilə düzgün təminatı tibbi-sağlamlıq işinin başlıca cəhətlərindən biridir. Elə bu səbəbdən də həmin dövrdə Səhiyyə Nazirliyinin əczaçılıq şöbəsi dərman preparatlarının alınmasını öz əlində cəmləşdirmişdi. Bakıda dövlət apteki və onun nəzdində dərmanların, bakterioloji preparatların, müalicə zərdablarının hazırlanması və tibbi-məhkəmə müayinələrinin aparılması üçün analitik laboratoriya təşkil olunmuşdu. Eyni zamanda, Bakıda yeni şəhər ambulatoriyaları, 9 aptek işə başlayaraq xəstələrə pulsuz xidmət göstərirdi.



epidemiyalara qarşı mübarizəni gücləndirmək üçün hərtərəfli planlar işləyib hazırlamış, bununla əlaqədar qərar qəbul etmişdi. Qərarda hökumət təzə təşkil etdiyi Səhiyyə Nazirliyi qarşısında çox ciddi vəzifələr qoymuşdu. Onlardan ən önəmlisi əhalinin sağlamlığının qorunması üçün lazımi şəraitin yaradılması və antisanitariya ilə mübarizənin gücləndirilməsi idi.

Bununla yanaşı, Azərbaycanda epidemiyalarla mübarizənin gücləndirilməsi, qəzalarda tibbi xidmətin yaxşılaşdırılması, tibbi kadrlar və dərmanlarla təmin olunma məsələsi də diqqət mərkəzinə çəkilmişdir. "Azərbaycan" qəzeti 1918-ci ilin sonlarında çıxan saylarından birində şəhər tibb-sanitar təşkilatlarının üzləşdiyi ağır vəziyyətdən, xəstələrin çoxluğundan, hətta yeni xəstələrin qəbulunun

Sovet dövründə də səhiyyəmizin inkişafı dayanmamışdı. Xüsusilə ötən əsrin 70-ci illərindən başlayaraq, Azərbaycanın sosial-iqtisadi, elmi-mədəni həyatında, o cümlədən səhiyyədə böyük canlanma yarandı. Belə ki, təkcə 1970-1980-ci illərdə Azərbaycanda yüzlərlə iri səhiyyə obyektləri inşa edildi.

Sonda qeyd edək ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli sərəncamına əsasən, Səhiyyə Nazirliyinin yaradıldığı gün - 17 iyun Səhiyyə İşçiləri Günü kimi qeyd olunur.

# Peşəkar komanda və müasir avadanlıqlarımız vətəndaşların xidmətindədir

## Həkim-kardioloq Qalib İmanov: "Biz hələ ana bətnində olan körpənin ürək qüsurunu aşkar edə bilirik"

**Bütün dünyada olduğu kimi, bu gün Azərbaycanda da ürək-damar xəstəlikləri geniş yayılıb. Ona görə də bu sahənin daim diqqətdə saxlanılması xüsusi önəm daşıyır. Bu baxımdan, ölkəmizdəki müalicə müəssisələrinin öncüllərindən sayılan ATU-nun Tədris Cərrahiyyə Klinikasında da kardioloji müayinə və müalicələr yüksək səviyyədə aparılır.**

Klinikanın Ürək kateterizasiyası və angioqrafiya laboratoriyasının müdiri, invaziv kardioloq, dosent Qalib İmanov bu barədə əməkdaşımıza məlumat verərək bildirib ki, burada 2014-cü ildən kardiologiya və kardiocərrahiyyə şöbəsi fəaliyyət göstərir: "Xəstəxana açılandan bütün təchizat və təminat qaydasındadır, pasientlər çox geniş spektrdə kardioloji və kardiocərrahi xidmətdən yararlanırlar. Klinikamızda həm müayinələr, həm stasionar müalicə, həm də qapalı və açıq ürək əməliyyatları həyata keçirilir. Bu gün dünyada kardiologiya və kardiocərrahiyyədə tətbiq olunan əməliyyatların 98 faizi bizim klinikada reallaşdırılır. Bunun üçün hər bir şərait və imkanmız var. Bu günə qədər lazım olan avadanlıqları almışıq



və xidmətlərimizin sayını mümkün qədər artırmışıq. Müasir tibbi aparatların köməyilə biz hələ ana bətnində olan körpənin ürək qüsurunu aşkar edə bilirik. Uşaq doğulandan sonra hansı müdaxilənin, hansı müalicənin lazım olacağını müəyyən edirik. Sonra həmin qüsurların invaziv, eyni zamanda açıq əməliyyat yolu ilə müalicəsi şöbəmizdə aparılır. Bundan əlavə, angioqrafiya, angioplastika, stend taxılması, beyin damarlarından tutmuş, ayaq damarlarına qədər müxtəlif əməliyyatlar həyata keçirilir".

İki il əvvəl ayrıca aritmioloji şöbə təşkil etdiklərini deyən Q.İmanov, insanın həyatına müəyyən dərəcədə təsir edəcək, hətta təhlükəli ola biləcək aritmiyaların müalicəsinin də invaziv yolla aparıldığını söyləyib. Qeyd edib ki, kardioloji mərkəzimizdə müasir tibbi cihazlar uğurla istifadə edilir: "İcbari tibbi sığortanın tətbiqi ilə bağlı və xəstəxanamızın müvafiq müqaviləsi olduğu üçün cihaza ehtiyacı olan xəstələrin böyük əksəriyyəti bizə yönləndirilir. Ona görə də respublikada ürək-damar mərkəzi olaraq həm xəstə sayı, həm də xəstə potensialı baxımından ön sıralardayıq. Təxminən 10-12 nəfərdən ibarət professional komandamız var. Ölkəmizdə cəmi 2 yerdə ürəyin MRT müayinəsi aparılır. Hər cihazın və yaxud hər xəstəxananın bu müayinəni aparmağa imkanı yoxdur. Biz isə bu müayinələri aparırıq. Yəni avadanlıq baxımından heç bir problemimiz yoxdur".

Mərkəzdə kardioloji məsələlərə dair vaxtaşırı elmi konfransların keçirildiyini, pandemiya dövründə onlayn məsləhətləşmələrin aparıldığını bildirən Q.İmanov, xarici mütəxəssislərlə təcrübə mübadiləsinin də qənaətbəxş səviyyədə olduğunu vurğulayıb.

# Piylənmə COVID-ə yoluxma riskini dəfələrlə artırır

## *Elçin Abdinov: "Hər kök, şişman, artıq çəkili insanı piylənməyə məruz qalmış hesab etmək olmaz"*

**Bu gün dünyada insanların ən çox əziyyət çəkdiyi məsələlərdən biri də artıq çəki və piylənmədir. Bir çox hallarda artıq çəkili insanlar həkimlə məsləhətləşmə aparmadan müxtəlif vasitələrdən istifadə etməklə arıqlamağa cəhd edirlər. Nəticədə arıqlamaq əvəzinə, sağlamlığını itirənlər də olur.**







Piylənmənin səbəbləri, insan orqanizmində əmələ gətirdiyi fəsadlar, müalicə yolları və bizi maraqlandıran digər suallarla Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının ümumi, bariatrik və metabolik cərrahı, Beynəlxalq Bariatrik və Metabolik Cərrahlar Assosasiyasının üzvü, tibb üzrə fəlsəfə doktoru Elçin Abdinova müraciət etdik. Həkim piylənmənin çox mürəkkəb patogenezə malik, tez-tez residivləşən xroniki bir xəstəlik olduğunu, dünya əhalisi arasında sürətlə yayılaraq dövrümüzün xəstəliyinə çevrildiyini bildirdi.

**- Piylənmənin əsas səbəbləri nələrdir?**

- Piylənmənin olduqca çoxlu səbəbləri var. Günümüzdə səbəbləri hələ də araşdırılır və yeni amillər aşkarlanır. Burada qidalanma faktorunun rolu danılmazdır. Orqanizmə daxil olan normadan artıq kalorinin sərf edilməməsi nəticəsində yağlar piy toxuması şəklində yığılaraq artır və piylənmə yaranır. Orqanizmdə maddələr mübadiləsinin və hormonal balansın pozulması da piylənmənin səbəbləri sırasındadır.

**- Bəs kimlər piylənməyə məruz qalmış hesab olunur?**

- Gündəlik həyatımızda rastlaşdığımız hər kök, şişman, artıq çəkili insanı piylənməyə məruz qalmış hesab etmək olmaz. Piylənməni təyin etmək üçün Bədən Kütlə İndeksi (BKİ) anlayışından istifadə olunur. BKİ bədən kütləsinin boy hündürlüyünün kvadratına bölünməsi ilə əldə olunur. BKİ 19-25 arası olduqda norma, 25-30 arası olduqda artıq kütlə, 30-dan çox olduqda isə, piylənmə kimi qiymətləndirilir. Piylənmə bir sira ağır metabolik xəstəliklərlə də müşayiət olunur: II tip şəkərli diabet, hipertoniya, qaraciyər piylənməsi və s. Bir məqamı da qeyd edim ki, bu gün dunya səhiyyəsi iki böyük problemlə üz-üzə qalıb: COVID-19 pandemiyası və piylənmə. Onsuz da piylənmə dünyada il ərzində 3-3.5 milyon insanını həyatına son qoyurdusa, bu gün onlar arasında COVID-19-a yoluxmaya görə ölüm faizi xeyli yüksəlib. Piylənməsi olan adam COVID-19-a yoluxduqda, müalicə etmək xeyli çətindir.

**- Siz bunu nə ilə izah edərdiniz?**

- Bayaq qeyd etdiyim kimi, dünya səhiyyəsi piylənmə ilə əlaqədar çox böyük problemlərlə üzləşib. Səhiyyə sistemi, tibb müəssisələri bədən kütləsi 150 kiloqrama qədər olan pasiyentlərə xidmət üçün hesablanıb. Bədən kütləsi 150-dən çox olan pasiyentlərə KT, MRT, digər müayinələr etmək və xidmətləri həyata keçirmək bir sıra çətinliklər yaradır. Bildiyimiz kimi, COVID-19 xəstələrinin tənəffüsünü rahatlaşdırmaq və oksigen təminatını artırmaq üçün üzü üstə uzanmaları tövsiyə olunur. Piylənməsi olan xəstələrdə isə bu, əks effekt verir. Piy toxuması COVID virusu üçün münbit şərait yaradır. Piylənməsi olanlarda virusun qanda miqdarı, virulentliyi yüksək olur, virusun yaşama müddəti uzanır, ölüm riski artır.

**- Bəs piylənmə COVID-ə yoluxma riskini artırırmı?**

- Aparılan araşdırmalar onu deməyə əsas verir ki, piylənmə COVID-ə yoluxma riskini 6 dəfə artırır.

Pandemiyanın başladığı ilk dövrdə Çin və İtaliyadan gələn məlumatlara görə, ölüm riski faktoru kimi yaş və yanaşı xroniki xəstəliklər əsas götürülürdüsə, virus əhalisinin 50%-dən çoxu piylənmədən əziyyət çəkən ABŞ-a keçdikdə, fikirlər tamamilə dəyişdi. BKİ 30-dan yuxarı olan şəxslərdə ölüm riski 2 dəfə, 40-dan yuxarı olanlarda 4.5 dəfə, gənc və yaşı 60-dan aşağı olan belə kişilərdə isə daha da çox artır. Bu faktorun COVID xəstələrinin hospitalizasiyasında praktiki əhəmiyyəti var. Piylənməsi olan xəstələrin ilk baxışdan vəziyyəti yüngül görünsə də, onların çox qısa zamanda ağırlaşması mümkündür. Ona görə də ilk növbədə bu xəstələr hospitalizasiya olunmalıdır.

**- Piylənmədən əziyyət çəkənlər hansısa konservativ üsullarla arıqlaya bilərlərmi?**

- Piylənmədən əziyyət çəkən insanların normal çəkiyə qayıtmasına pəhriz, idman kimi konservativ üsullar kömək etmir. Həm də idman zamanı daha da ağır xəsarətlər ala bilərlər. Aşağı dərəcəli, yəni birinci dərəcəli piylənmədə pəhriz, idmanla nəticə əldə etmək olar. Lakin onların 3 faiz şansı var. Yəni 100 xəstədən 97-də pəhrizi, idmanı buraxdıqda, həyat tərzini dəyişdirdikdə, nəinki itirilmiş çəki geri qayıdır, hətta əvvəlkindən də çox çəki alınır.

**- Piylənmə ilə mübarizədə ən əlverişli üsul hansıdır?**

- 1990-cı illərdə dünyanın tibb təşkilatları və alimləri piylənmə ilə mübarizənin cərrahi əməliyyat yolu ilə aparılması qərarına gəliblər. Təbii ki bu, morbid, yəni həddən artıq çox piylənməsi olanlara aiddir. Əgər, bir insanda piylənmə varsa, əməliyyata əks göstəriş yoxdursa, onun yeganə uğurlu, effektiv və uzunmüddətli müalicə üsulu bariatrik cərrahiyyədir. Bu, bütün dünyada sübut olunub və Dünya Səhiyyə Təşkilatı tərəfindən qəbul edilib.

**- Bariatrik cərrahiyyənin faydaları nədir?**

- Piylənmədən əziyyət çəkən insanın daxili orqanlarında bir sıra problemlər mövcuddur. Həmin insanlar yanaşı olaraq bir sıra metabolik xəstəliklərdən əziyyət çəkirlər. Normal insanlara nisbətən ömürləri 30 faiz qısa olur. Səbəbi bilinməyən qəfləti ölüm riski həddən artıq çoxdur. Bu əməliyyatdan sonra isə qanda şəkərin miqdarı tənzimlənir, qan təzyiqi normallaşır, xəstələrin ömrü 10-12 il artır. qrama ilyarım, iki il əməl etsinlər.

Qeyd edim ki, pasiyentlərimiz arasında bir çox tanınmış simalar da var. Onlardan Əməkdar artist Nahidə Orucovanın, tanınmış müğənni Cəvahir Abdulovanın və başqalarının adlarını çəkə bilərəm.

**Mayın 25 və 26-da Azərbaycan Tibb Universitetinin bir qrup əməkdaşı ilə türkiyəli mütəxəssislərin "İctimai səhiyyədə aktual problemlər" mövzusunda birgə vebinarı keçirilib. Vebinarı ATU-nun Rezidentura və magistratura şöbəsinin müdiri, professor Nailə Sultanova açıb.**



# İctimai səhiyyənin aktual problemləri müzakirə olunub

## İki günlük vebinarın sonunda iştirakçılara sertifikatlar təqdim edilib



Sonra ATU-nun İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev qonaqları salamlayıb və giriş nitqi söyləyib. A.Ağayev bildirib ki, vebinarın təşkil edilməsində əsas məqsəd universitetimizi beynəlxalq miqyasda daha yaxından tanıtmaq və əməkdaşlarımızın qabaqcıl dünya təcrübəsindən yetərincə faydalanmasına şərait yaratmaqdan ibarətdir.

Bundan sonra vebinarın gündəliyi elan olunub. ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin mübadilə proqramları üzrə koordinatoru, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının assistenti Aygün Babayevanın "Azərbaycan Tibb Universitetinin beynəlxalq əməkdaşlıq istiqamətləri" mövzusunda məruzəsi dinlənilib. Çıxışında ATU-nun beynəlxalq əlaqələri barədə ətraflı məlumat verən A.Babayeva qeyd edib ki, universitetimiz dünyanın bir sıra qabaqcıl təhsil müəssisələri ilə geniş əməkdaşlıq münasibətləri qurub. Belə ki, ATU beynəlxalq əlaqələr çərçivəsində mövcud olan bir çox proqramlara qoşulub və həmin proqramlarda tamhüquqlu üzv kimi iştirak edərək uğurlu nəticələrə imza atıb.

İki gün davam edən vebinarda Türkiyənin Hitit Universitetinin dosenti Ali Unal "STRES tədqiqatları, ÜST-ün xroniki xəstəliklərin risk amillərinin müşahidəsinə mərhələli yanaşması", Tarsus Universitetinin dosenti Şükrü Anıl Toyğar "Əhali qruplarının ictimai səhiyyə ehtiyacları, ailə, etnik qrupların və irqlərin sağlamlığı", Ankara Universitetinin professoru Afsun Ezel Esatoğlu "Əhalinin sağlamlıq vəziyyəti və əhalinin sağlamlığının inteqral indikatorları", Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyənin informasiyalaşdırılması mərkəzinin direktoru Cəbrayıl Əsədzadə "Səhiyyə sistemində elektron xidmətlər" mövzularında geniş söhbət açıblar.

Vebinarda, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin mütəxəssisi dr. Tural Qulu, UNEC Biznes Məktəbinin əməkdaşı dr. Teymur Mirzəbəyli, Səhiyyə Nazirliyinin İctimai səhiyyə və islahatlar mərkəzinin Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadə, ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva, ATU-nun Psixiatriya kafedrasının assistenti Gülay Məmmədzadə, ATU-nun Rezidentura və magistratura şöbəsinin müdir müavini ə.ü.f.d. Əfsanə Məmmədova gündəlikdəki mövzu ətrafında müxtəlif məruzələrlə çıxış ediblər.

Diskussiya formasında keçən vebinarın gedişində - fiziki aktivlik ictimai sağlamlığın aktual problemi kimi, uşaq sağlamlığı və sağlamlığın sosial və mədəni həyatda rolu, ortaq həyat tərzi, ictimai yaşam dövründə zərərli vərdişlərin ölüm sayında statistik göstəriciləri haqqında alimlərin araşdırmaları açıqlanıb. Çıxış edən natiqlər, eləcə də inkişaf etmiş ölkələrdə səhiyyə sisteminin maliyyələşməsi, universal tibbi təminat, səhiyyə islahatları, tibbi sığortanın tətbiq edilməsi və elektron səhiyyənin əhəmiyyətindən danışıblar. Vebinarda COVID-19 pandemiyasının dünyadakı son durumu və bu virusa qarşı aparılan işlərlə bağlı da məlumat verilib.

Tədbirdə magistratura təhsil pilləsində səhiyyə menecmenti ixtisasının aktuallığına dair müzakirələr və hər bir mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb. Daha sonra iştirakçılar tərəfindən verilən suallar cavablandırılıb.

Vebinarın işini yekunlaşdıran professor Anar Ağayev tədbirin təşkilatçılarına və iştirakçıların hər birinə təşəkkürünü bildirərək qeyd edib ki, bu tədbir pandemiya dövründə ilk dəfə olaraq ictimai səhiyyə sahəsində ən səmərəli bir vebinardır və belə tədbirlər davamlı olacaq.

Vebinarın sonunda tədbir iştirakçıları sertifikatlarla təltif olunublar.

Məlumat üçün bildirək ki, Ankara HBV Universitetinin Səhiyyə təşkilatlarının idarə edilməsi kafedrasının doktorantı, Modern Hospitalın direktoru Ravil Tağıyev və ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin mübadilə proqramları üzrə koordinatoru, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının assistenti Aygün Babayeva vebinarda panellərə moderatorluq edirdilər.

**M.Ələkbərli**

# Professor Əhməd Əhmədzadə vəfat edib

**Azərbaycan Tibb Universitetinin Travmatologiya və ortopediya kafedrasının müdiri, tibb üzrə elmlər doktoru, professor Əhməd Əhmədzadə vəfat edib.**



Qeyd edək ki, Ə.Əhmədzadə 1946-cı ildə Qazax şəhərində anadan olub. Orta təhsilini Qazax şəhər 1 nömrəli orta məktəbdə alıb. 1964-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsinə daxil olub və 1970-ci ildə buranı bitirib. 1970-1973-cü illərdə təyinatla Xaçmaz Rayon Mərkəzi Xəstəxanasında həkim travmatoloq işləyib.

1973-cü ildə Moskva şəhərində Mərkəzi Travmatologiya və Ortopediya İnstitutunun kliniki ordinaturasına qəbul olub. 1975-ci ildə ordinaturanı bitirdikdən sonra həmin il əyani aspiranturaya daxil olub. 1978-ci ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi alıb. 1979-cu ildə Azərbaycana qayıdaraq Tibb İnstitutunun Travmatologiya və ortopediya kafedrasında assistent vəzifəsində əmək fəaliyyətini davam etdirib.

1983-1988-ci illərdə Moskva 2 nömrəli Tibb İnstitutunun Travmatologiya və ortopediya kafedrasında doktorantura təhsili alıb. 1988-ci ildə Moskvada doktorluq dissertasiyasını müdafiə edib, yenidən Azərbaycana qayıdıb. Azərbaycan Tibb İnstitutunun Travmatologiya və ortopediya kafedrasında professor vəzifəsində çalışıb. 1998-ci ildən indiyədək həmin kafedranın müdiri olub.

Respublikada ən müasir müalicə metodlarını ətrafların sınıqları zaman tətbiq etmək professor Əhməd Əhmədzadəyə məxsusdur. İlizarov aparatını Azərbaycanda ilk dəfə tətbiq edən də o olub.

ATU-nun rəhbərliyi və kollektivi Əhməd Əhmədzadənin vəfatı ilə bağlı mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

**Koronavirusun yayılması ilə planetimizi bürüyən pandemiya bütün ölkələrdə yerli ictimaiyyətləri, bir sıra xidmət sahələrini, xüsusilə də tibb sektorunu ciddi sınağa çəkdi. Təkcə Azərbaycanda deyil, bütün dünyada səhiyyə sisteminin bu cür ağır prosesin öhdəsindən gəlməyə hazır olmadığı bəlli oldu.**

# Pandemiya zamanı fərdi tibbi praktikanı necə inkişaf etdirmək olar?

## *Azərbaycan Tibb Universitetinin baş müəllimi maraqlı təkliflər irəli sürür*



Pandemiyanın yaratdığı ağır vəziyyət özəl tibb müəssisələrinin fəaliyyətində də müəyyən problemlər olduğunu ortaya qoydu. Azərbaycan Tibb Universitetinin İctimai fənlər kafedrasının baş müəllimi, Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Nigar Ələkbərova bildirir ki, pandemiya dönəmində ilk olaraq tibbi xidmətdəki mövcud təklifin kütləvi tələbi qarşılamadığı üzə çıxdı: "Əsas məsələlərdən biri özəl klinikaların idarəetməsindəki problemlərlə bağlı idi. Digər tərəfdən, özəl tibb müəssisələrində resurslardan istifadədə fiziki, maliyyə və sosial baxımdan çatışmazlıqlar yarandı. Həmçinin tibbi xidmətlərin təklifində resurs çatışmazlığı – həm kadr, həm dərman təminatı, həm də texniki təchizatla bağlı problemlər özünü göstərdi".

N.Ələkbərovanın sözlərinə görə, bu durumda səhiyyənin özəl sektorunda idarəetmə siyasətinə yenidən baxmaq lazımdır: "Çünki idarəetmədə mövcud zəif bənd – hansısa çatışmazlıq sonradan effektiv fəaliyyətin qarşısını almış olur. Əhalinin tibbi ehtiyaclarının dəyişməsi, tibb müəssisəsi işçilərinə qarşı irəli sürülən yeni tələblər, fərqli gözləntilərin olması nəzərə alınmalıdır".

ATU-nun əməkdaşı pandemiya dövründə həkimlərin fərdi tibbi praktikasının nizamlanması ilə bağlı bir sıra önəmli məsələləri də vurğulayır. Onun fikrincə, böyük klinikalar həkimlərin qazancının böyük hissəsini aldığına görə, yüksək ixtisaslı peşəkar tibb işçiləri fərdi olaraq çalışmağa üstünlük verirlər və bu, bazarda rəqabəti artırır. Buna görə də dövlət də bazarda bu seqmentin inkişafında maraqlı olmalıdır: "Qeyd olunanlardan savayı, belə mütəxəssislərə bəzi spesifik məqamları da nəzərə almaq lazımdır. İş orasındadır ki, belə peşəkar həkimlər böyük klinikalara nəzərən iqtisadi və avadanlıqla təchizat baxımından daha zəif durumda olurlar. Onlar həm bahalı tibbi avadanlıq almalı olur, həm də iqtisadi baxımdan irimiqyaslı işlər görmək və qazanc əldə etməkdə çətinlik çəkirlər. Ona görə də onların fəaliyyəti ilə bağlı lisenziyalaşma rüsumu və vergilərin rasional müəyyənləşdirilməsinə ehtiyac var".

Fərdi tibbi praktikanın işini stimullaşdırmaq üçün növbəti təklif ilk vaxtlarda onlara dövlət fondundan daha aşağı qiymətə ofislərin icarəyə verilməsi ola bilər. N.Ələkbərova qeyd edir ki, fərdi tibbi praktikaya dövlət dəstəyi son nəticədə tibbi xidmətlərin liberallaşmasına da müsbət təsir göstərər: "Çünki belə olan halda, dövlət hansısa tibbi mərkəzin saxlanması, avadanlıqlarla təchiz olunması, əməkdaşlara maaş ödənilməsi kimi məsələlərə vəsait xərcləmir, əksinə, hələ büdcəyə gəlir də daxil olur. Həm də əhalinin yüksək ixtisaslı və keyfiyyətli tibbi yardım ala biləcəyi yerlərin sayı çox olur".

Təkliflərdən biri də tələbə və rezidentlərin fərdi praktika ilə məşğul olan həkimlərin yanında təcrübə keçməsi ilə bağlıdır. Belə ki, bu proses üçtərəfli faydalı ola bilər. Əvvəla, tələbələr yüksək ixtisaslı həkimlərin yanında dərs almış olar. Digər tərəfdən, bu mütəxəssislər əlavə işçi qüvvəsindən istifadə etmək imkanı əldə edərlər. Üçüncüsü isə, tələbələr peşəkar bilik və bacarıqlarla yanaşı, özəl tibbi sahibkarlıq təcrübəsi də qazanarlar.

# Üç dializ xəstəsinə böyrək nəql edilib

**Bu günlərdə ATU-nun Tədris Cərrahiyyə Klinikasında üç dializ xəstəsi üzərində uğurlu böyrək nəqli əməliyyatı həyata keçirilib. Bu barədə əməkdaşımıza ATU-nun I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov məlumat verib.**



Onun sözlərinə görə, donorlar xəstələrin qohumları olub: "Biz əməliyyatları İstanbul Bilim Universitetinin professor-müəllim heyəti ilə briqada şəklində həyata keçirdik. Əməliyyatdan bir həftə sonra xəstələr evlərinə buraxıldı. İstər donorlar, istərsə də əməliyyat olunanlar özlərini normal hiss edirlər. Onlar öz durumlarından və tibbi personalın xidmətindən məmnundurlar. Xəstələr daha dializ aparatından asılı olmayacaqlarına görə çox sevinirlər".

Təxminən 6-7 aydan sonra pasiyentlərin artıq həftəlik deyil, 2-3 aydan bir müayinə olunacaqlarını dilə gətirən kafedra müdiri, böyrək nəqli əməliyyatının dializ xəstələrinin probleminin həllində ən uyğun əməliyyat olduğunu da diqqətə çatdırıb.

# Azərbaycanda COVID pasportu tətbiq olunacaq

**Nazirlər Kabineti yanında Operativ Qərargahın mayın 25-də keçirilən brifinqində xüsusi karantin rejiminin yumşaldılması ilə bağlı bir sıra qərarlar açıqlanıb.**

**Bunlar aşağıdakılardır:**

- 31 maydan etibarən açıq havada maskasız gəzməyə icazə verilir;
- 31 maydan metro açılır, lakin metrostansiya və qatarlarda tibbi maskadan istifadə zəruridir;
- 31 maydan bölgələrarası ictimai nəqliyyatın fəaliyyəti bərpa edilir;
- 10 iyundan ibadət yerləri açılır;
- 10 iyundan iri ticarət mərkəzləri açılır;
- 10 iyundan çimərliklər açılır, ötənilki qaydalarla tənzimlənəcək;
- 10 iyundan idman zallarının fəaliyyəti bərpa edilir, lakin COVID pasportu olan, yeni vaksinasiyadan keçmiş şəxslər üçün.
- Azərbaycanda COVID pasportu tətbiq olunacaq.



İki doza vurulanlara vaksin sertifikatı veriləcək. İkinci sertifikat isə immunitet sertifikatıdır. Bu, xəstələnib sağalanlara veriləcək. Bu iki sertifikatın hər ikisi COVID pasportu adlanacaq. Bunların hər hansı birinə malik olanlar idman sağlamlıq obyektlərinin xidmətindən istifadə edə biləcəklər. Gələcəkdə bu yanaşmanın toylara tətbiqi nəzərdə tutulur. Konsert, teatr və şənlik xidmətlərindən istifadə etmək istəyənlərdən də COVİD pasportu tələb olunacaq.

# COVID-19 pasportunu necə əldə edək?

**COVID-19 pasportunun əldə edilməsi ilə bağlı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi açıqlama yayıb. Məlumatda deyilir:**

"COVID-19 pasportunun iki növü var: "COVID-19 vaksin sertifikatı" və "COVID-19 immunitet sertifikatı". "COVID-19 vaksin sertifikatı" COVID-19 xəstəliyi əleyhinə vaksinasiya olunanlara (iki dozada), "COVID-19 immunitet sertifikatı" isə xəstəliyə yoluxub sağalmış şəxslərə verilir. Sözügedən sertifikatları əldə etmək üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi internet səhifəsində E-xidmətlər bölməsinin "Şəxsi Kabinetə giriş" **(https://kabinet.its.gov.az/az/index)** altbölməsi seçilməlidir. Bu bölmə "MyGov" portalına da inteqrasiya edilib.

Burada "ASAN Login" sistemində istifadəçi FİN-i, "Asan İmza", Elektron imza və ya BSXM (Bank Sertifikat Xidmətləri Mərkəzi) imzası ilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçdikdən sonra açılan pəncərədə "Digər xidmətlər" bölməsi seçilməlidir. "Digər xidmətlər" bölməsi seçildikdə, ekranda "COVID-19 vaksin sertifikatı" və ya "COVID-19 immunitet sertifikatı" seçimləri əks olunur. Əgər vətəndaş vaksin olunubsa, "COVID-19 vaksin sertifikatı" seçimini etməlidir. Xəstəliyə yoluxub sağalmış şəxs isə "COVID-19 immunitet sertifikatı" seçimini etməlidir. Bu zaman təqdim olunan COVID-19 pasportunu elektron formatda yükləmək, eləcə də çap versiyada əldə etmək olar.

Qeyd edək ki, COVID-19 pasportunun doğruluğunun sənəddə əks olunan "QR Code" vasitəsilə yoxlanılması da mümkündür. Əlavə olaraq bildirək ki, vətəndaşlar COVID-19 pasportunu "E-Təbib" mobil tətbiqi vasitəsilə də əldə edə bilərlər".



# Yaddaş zəifliyini yaradan səbəblər

Unutqanlıq, yaddaşsızlıq, diqqətin azalması kimi konsentrasiya problemi olan insanlarla tez-tez rastlaşırıq. Problemin səbəbləri isə müxtəlifdir. Stres, depressiya, kompüter və telefondan çox istifadə edilməsi də yaddaş zəifliyi yaradan səbəblərdəndir.

Bu haqda həkim-nevropatoloq Sevinc Salamova deyib: "Yaddaş beynin ən mühüm funksiyalarından biridir. Yaddaşın zəifləməsi və azalması demensiya adlanır. Yaddaş zəifliyi ən sadə və ən mürəkkəb səbəblərdən yarana bilər. B12 vitaminin çatışmazlığı, tireoid vəzinin funksiyasının pozulması, hər hansı dərman maddəsinin uzun müddət qəbul edilməsi, müxtəlif zərərli vərdişlərin, məsələn, alkoqol qəbulu yaddaş zəifliyinə aparıb çıxaran başlıca səbəblər sayılır".

Yaddaş zəifliyinin aradan qaldırılması üçün bəzən tez-tez şirin çay içilməsi və şirniyyat qəbulu tövsiyə edilir. Həkim-nevropatoloqun fikrincə, əslində belə qidaların faydası yoxdur: "Daha yaxşı olardı ki, müxtəlif dəniz məhsulları, meyvə-tərəvəzlər, vitamin və Omeqa yağları ilə zəngin olan məhsullar balanslaşdırılmış şəkildə qəbul edilsin. Beynin daha çox çalışmasına da nail olmaq lazımdır. Çox mütaliə etmək, xarici dil öyrənmək yaddaşı möhkəmləndirən amillərdəndir. Fiziki aktivlik və normal yuxu rejimi də yaddaşa müsbət təsir göstərir".

# "Vaksinlər ədalətli paylansaydı, dünyadakı bütün tibb işçiləri və qocalara çatardı"

### *ÜST rəhbəri: Məqsədimiz hər bir ölkənin əhalisinin ən azı 10 faizinin sentyabr ayına qədər peyvənd olunmasıdır*

2021-ci ilin yalnız beş ayı ərzində 2020-ci ilə nisbətən daha çox koronavirusa yoluxma halları və xəstəlikdən ölüm hadisələri qeydə alınıb. COVID-19 pandemiyası dünya əhalisi üçün ciddi bir təhlükə yaratmağa davam edir. AZƏRTAC xəbər verir ki, bunu ÜST-nin Baş direktoru doktor Tedros Qebreyesus Ümumdünya Səhiyyə Assambleyasının açılışında bəyan edib.

Doktor Tedros Qebreyesus bu günə qədər COVAX təşəbbüsü çərçivəsində 72 milyon doza vaksinin 125 ölkəyə çatdırılmasına nail olunduğunu xatırladıb. "Bu, onların əhalisinin hətta bir faizinin vaksinasiyası üçün kifayət etməyə bilər", - deyə o qeyd edib. ÜST rəhbəri inkişaf etmiş ölkələri COVAX da daxil olmaqla yoxsul ölkələrlə preparatları paylaşmağa çağırıb.



O, hər ölkədə virusun ötürülməsi nəzarət altına alınana qədər pandemiyanın bitməyəcəyini vurğulayıb. İndi heç bir ölkə, əhalisinin peyvənd nisbəti nə qədər yüksək olsa belə, özünü koronavirusu məğlub edən ölkə hesab edə bilməz. "Vaksinasiya sahəsində davam edən böhran – məhz pandemiyanı uzadan bərabərsizliyin görünməmiş ifadəsidir. Təkcə 10 ölkədə bütün peyvəndlərin 75 faizindən çoxu vurulub", - deyə doktor Tedros Qebreyesus bildirib.

"Bu fikri heç bir diplomatik formaya salmaq mümkün deyil: vaksinlərin böyük hissəsini istehsal edən və alan ölkələrin kiçik bir qrupu bütün dünyada vəziyyətə nəzarət edir", – deyə o əlavə edib. ÜST rəhbərinin sözlərinə görə, bu günə qədər vurulmuş peyvəndlərin dozaları daha ədalətli paylansaydı, dünyada bütün tibb işçiləri və yaşlı insanlara kifayət edərdi.

O, Ümumdünya Səhiyyə Təşkilatının beynəlxalq ictimaiyyət qarşısında qoyduğu məqsədlərdən bəhs edib: hər bir ölkənin əhalisinin ən azı 10 faizi bu ilin sentyabr ayına, 30 faizi isə ilin sonuna qədər peyvənd olunmalıdır. "Bu, ölüm halları və xəstəliyi ağır formada keçməsinin qarşısını almaq, tibb işçilərini qorumaq və iqtisadiyyata və ictimai həyata yenidən başlamağa imkan verəcək", - deyə doktor Tedros Qebreyesus söyləyib.

O, həmçinin diaqnostika, müalicə üsulları və peyvəndlərin koronavirusun yeni variantları və yeni ştamlarına qarşı effektivliyini hələ ki qoruyub saxladığını vurğulayıb. Lakin bir çox ölkələrdə virus nəzarətsiz şəkildə yayılmağa və mutasiyaya məruz qalmağa davam edərsə, virusun yeni, daha təhlükəli variantları ortaya çıxa bilər.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin V kurs, 369 B qrup tələbəsi Zeki Ömer Taruk Haytanın adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, 117 A18 qrup tələbəsi Səlimova Jalə Elçin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının kollektivi, İctimai Səhiyyə fakültəsinin dekanlığı və II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları Tədris Terapevtik Klinikanın müalicə işləri üzrə direktor müavini ( baş həkim) Fəridə xanım Hacıyevaya oğlu

**Kamranın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ATU-nun nəzdində Dissertasiya işlərinin ilkin sənədlərinin yoxlanılması üçün komissiyanın üzvləri, İctimai Səhiyyə fakültəsinin dekanlığı, Qidalanma və kommunal gigiyena, Tibbi mikrobiologiya və Bioloji kimya kafedralarının əməkdaşları Tibbi mikrobiologiya kafedrasının professoru Nigar Ağayevaya qızı

**Şəms Xuduyevanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ümumi və toksikoloji kimya kafedrasının əməkdaşları kafedranın baş laborantı Arzu Teyyubovaya atası

**Yusif bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qulaq, burun və boğaz xəstəlikləri və I Mamalıq-ginekologiya kafedralarının əməkdaşları ATU-nun professoru Azər Xudiyevə qardaşı

**Nizami Xudiyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ailə təbabəti kafedrasının kollektivi Leyla Əhmədzadəyə atası

**professor Əhməd Əhmədzadənin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ailə təbabəti kafedrasının kollektivi kafedranın assistenti Şəhla Məmmədovaya anası

**Gülnisə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ailə təbabəti kafedrasının kollektivi kafedranın dosenti Sona Şahbazbəyovaya əzizi

**Rasim Yaqubovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bioloji kimya kafedrasının kollektivi kafedranın laborantı Samir Süleymanova anası

**Sevil xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

I Mamalıq-ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Aytən xanıma atası

**Nizami Xudiyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları iş yoldaşları Aidə Ağayevaya nənəsi

**Tehran xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKF-də çap olunur və universitet daxilində yayılır.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2250